**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MƏSUDƏ İSMAYIL QIZI VƏLİYEVA**

# XARİCİ ÖLKƏ ALİMLƏRİNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN NUMİZMATİKASI

5505.02 - Arxeologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Numizmatika" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **İlyas Atababa oğlu Babayev**
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru, profesor*

**Akif Arif oğlu Quliyev**
*tarix üzrə fəlsəfə doktoru*

**Rəsmi opponentlər: Əli Məhəmməd oğlu Rəcəbli**
*tarix üzrə elmlər doktoru, professor*

**Qənirə Əli qızı Pirquliyeva**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universiteti "Ümumi tarix" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən (5505.02 – "Arxeologiya") tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D. 01.171 saylı Dissertasiya Şurasının "25__" ___dekabr______ 2013-cü il tarixli iclasında saat __11____ keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "_19_" ___noyabr______ 2013-cü il tarixdə göndərilmişdir.

F/D. 01.171

Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə fəlsəfə doktoru: S.H.Aşurov

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan tarixinin sosial-iqtisadi və siyasi münasibətlərinin öyrənilməsi əksər hallarda maddi-mədəniyyət nümunələrinə əsaslanır. Bu cür maddi-mədəniyyət qalıqları sırasında numizmatik materialların danılmaz və əvəzedilməz rolu vardır. Belə ki, əgər orta əsrlərdən etibarən tarixin qaranlıq səhifələrini araşdırmaq üçün kifayət qədər əlyazmalar mövcuddursa, erkən dövlətçilik tariximizin dəqiqləşdirilməsində məhz arxeoloji qazıntılar zamanı və yaxud təsadüfi tapıntılar nəticəsində aşkar edilən sikkə nümunələri bütöv bir tarixi hadisələri araşdırmaq üçün mütəxəssislər tərəfindən əsas mənbə kimi istifadə edilir.

Tədqiqata cəlb edilən mövzunun aktuallığının əsasında məhz sikkə və sikkə işi ilə əlaqədar olan materialların öyrənilməsi məsələlərinin dəqiqləşdirilməsi üçün əcnəbi mütəxəssis-alimlərin əsərlərində artıq elmə məlum olan müddəaların öyrənilməsi durur.

Belə ki, müasir dünyada hər hansı bir xalqın, dövlətin tarixini digər xalqlardan və dövlətlərdən ayrı bir kontekstdə öyrənmək mümkün deyildir. Dövrümüzün tarix, o cümlədən, numizmatika elmi üçün qəbul edilən əsas şüarı, bu elm sahələrinə qlobal olaraq tamamilə yeni baxışdır. Bu və digər obyektiv, subyektiv səbəblərdən Azərbaycan numizmatikasının daha da dərindən öyrənilməsi üçün ayrı-ayrı xalqların tanınmış numizmatlarının, şərqşünaslarının, tarixçilərinin əsərlərində məhz bizim xalqın dövlətçiliyinin rəsmi nişanələrindən olan sikkələrin cəlb edilməsi elmin qarşısında duran əsas məsələlərdəndir.

Müasir dünyada dünyanın bir çox muzeylərinin fondlarında mövcud olan Şərq bölmələrində Azərbaycan dövlətləri tərəfindən zərb edilən saysız-hesabsız sikkələr və dəfinələr qorunub saxlanılır. Bu numizmatik abidələr haqqında ayrı-ayrı zamanlarda dövrü və elmi, elmi-kütləvi nəşrlərdə qısa məlumatlar, məqalələr çap olunur. Bəzən əcnəbi alim-numizmatlar dünya ticarət münasibətlərində istifadə edilən sikkələr haqqında kataloqları tərtib etdikdə bizim şəhərlərin sikkə zərbi nümunələrinə də müraciət etmiş olurlar. Ancaq bu günədək ən azı yaxın sərhədlərimizdə yerləşən ölkələrdə çap olunan və xalqımızın maddi-mədə-

niyyətinin bir hissəsi olan sikkələr hansısa bir topluda, yaxud digər bir formatda müstəqil araşdırma mövzusu olmamışdır.

XIX əsrin əvvəllərindən etibarən ölkəmizin və bütövlükdə Cənubi Qafqazın Rusiya imperiyası tərəfindən işğal edilməsi ilə xalqımıza aid olan ən dəyərli materiallar sırasında sikkələr və zəngin tərkibli dəfinələr kütləvi olaraq daşınaraq, dünyaşöhrətli Kunstkameraya, Ermitaja, Moskvanın mərkəzi muzeylərinə, həmçinin, ayrı-ayrı zadəganların şəxsi kolleksiyalarına daxil olmuşlar. Bu materiallar barəsində ilkin yığım dövründə heç bir məlumatlar yaxın dairələrdən kənara çıxmır və geniş elmi ictimaiyyətə təqdim edilmirdi.

Beləliklə, XIX əsrin əvvəllərindən başlayaraq, XX əsrin sonlarına qədər rusdilli elmi ədəbiyyatda mövcud olan araşdırmaları diqqətlə öyrənmək, oradakı bəzi problemli məsələlərin həllində sonrakı dövrlərin uyğun məzmunlu çap işləriylə müqayisəli analiz üsulu ilə təhlilləri həyata keçirmək araşdırdığımız mövzunun aktuallığının əsas tərəflərindən biri kimi önə çəkilə bilər.

Mövzunun öyrənilməsi üçün xarici ölkə alimlərinin əsərlərinə müraciət edən Azərbaycanın tanınmış numizmatlarından M.Ə.Seyfəddini və Ə.M.Rəcəblinin elmi yaradıcılığını xüsusi olaraq qeyd etmək lazımdır. Belə ki, professor M.Ə.Seyfəddini ilk dəfə azərbaycanlı numizmat-alim kimi öz elmi yaradıcılığında ərəb və farsdilli mənbələri ciddi araşdırmış və sikkələrin üzərində olan məlumatlarla tutuşduraraq mühüm elmi nəticələr əldə etmişdir. Başqa bir aspektdən mövzunun aktuallığını artıran səbəblər sırasında ölkəmizin keçən yüzillikdə 74 il sovetlər imperiyasının tərkibində olmasıdır. Buna görə də mövzunun araşdırılmasında SSRİ-nin tərkibində olan ölkələrdə çap olunan numizmatika üzrə əsərlərdən damla-damla olsa da, ölkəmizin tarixi üçün materialların toplanması və onların ümumiləşdirilməsi kimi aktual məsələlərdən biri durur.

Mövzunun aktuallığını artıran əsas şərtlərdən biri də yaşadığımız zamanda informasiyaların yayılmasının fantastik sürəti və bununla əlaqədar keçən 200 ildə çap olunan elmi əsərlərin insanların diqqətindən kənarda qalması ilə bağlıdır. Həm kitabxanaların nadir fondlarında saxlanılan qiymətli əsərlərdən, həm də internetin köməyi ilə qloballaşan dünyada numizmatika sahəsində baş verən yenilikləri izləmək dövlətimizin

tarixinin öyrənilməsi, bəzi hallarda dəqiqləşdirilməsi baxımından mövzunun aktuallığını daha da artırır.

**Tədqiqatın xronoloji çərçivəsi.** XIX əsrin sonlarından başlayaraq, XXI əsrin ilk onilliyini əhatə edir. Tədqiqat işi üçün bu zaman kəsiyinin seçilməsi onunla əlaqədardır ki, məhz göstərilən zaman kəsiyindən başlayaraq, Azərbaycan numizmatikasının öyrənilməsinə başlanmışdır. Məlum olduğu kimi, XIX əsrin ikinci yarısı kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq, Azərbaycan tarixində feodal sosial-iqtisadi münasibətlərin süquta uğraması və yeni kapitalist münasibətlərinin inkişafı ilə xarakterizə olunur. Məhz bu dövrdə Rusiya tərəfindən müstəmləkəyə çevrilən Azərbaycanın istər sənaye sahələri, istərsə də elmi ruslar tərəfindən idarə olunurdu. Heç təsadüfi deyil ki, bu dövrdə bütün elmi araşdırmalar əcnəbi alimlərə məxsus olmuşdur. XX əsrin 50-ci illərindən başlayaraq, azərbaycanlı alimlər tədqiqat işlərində iştirak etsələr də, onlar sovet rejiminin qəbul etdiyi ideologiyaya uyğun tədqiqatlar aparmışlar. Yalnız 90-cı illərdən başlayaraq, Azərbaycan Respublikasının alimləri müstəqil elmi araşdırmalarla məşğul olmağa başlamışlar.

Beləliklə, tədqiqatın xronoloji çərçivəsinin XIX əsrin sonu – XXI əsrin ilk əvvəlləri müəyyənləşdirilməsi, Azərbaycan sikkəşünaslığının xarici ölkə alimlərinin əsərlərində işıqlandırılması təsadüfi olmayıb, dissertasiya işinin mənbəşünaslıq bazası ilə bağlıdır.

**Mövzunun öyrənilmə vəziyyəti.** Araşdırdığımız dissertasiya işi bir tədqiqat mövzusu kimi öyrənilməmişdir. Buna baxmayaraq, bəzi müəlliflər bu mövzuya toxunublar. Bunlardan Ə.M.Rəcəblinin "Azərbaycan numizmatikasının inkişafında rus alimlərinin xidmətləri" adlı məqaləsini, T.Ə.Quliyevin "Azərbaycan numizmatikası Y.A.Paxomovun tədqiqatlarında" adlı namizədlik dissertasiyasını göstərmək olar.

Bununla belə ölkəmizdə numizmatika elminin təşəkkül tapdığı illərdən başlayaraq, bu və ya digər səviyyədə qələmə alınan və numizmatik materiallara həsr olunan əksər məqalə və monoqrafiyalarda, elmi araşdırmalarda bu mövzuya toxunulmuşdur. 1919-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) nəzdində fəaliyyətə başlayan "Müsəlman Şərqini öyrənən Cəmiyyət"də əsas aparıcı mütəxəssis olan Yevgeniy Aleksandroviç Paxomov bütün elmi araşdırmalarında ölkəmizdə

həyata keçirilməyə başlayan arxeoloji qazıntılar nəticəsində aşkar edilən sikkələrin təyin edilməsi işlərində bəzən analogiyalara istinad etdiyi zaman əcnəbi alimlərin əsərlərinin adlarını qeyd edirdi. 1926-cı ildən başlayaraq alim "Azərbaycan və Qafqazın digər respublikaları, ölkələri və vilayətlərinin dəfinələri" adlı 9 cildlik monumental əsərində həmin illərdə qəbul edilən xronoloji çərçivəyə uyğun olaraq, ümumi sayı 2160 ədəd, müxtəlif dövrlərə, dövlətlərə və hökmdarlara aid olan numizmatik abidələri öyrənmişdir. Onlardan bəzilərinin təyinatı zamanı alim həmin illərdə elmə məlum olan mülahizələrdən bəhrələnmiş və bəzi hallarda elmi nəticələrin gələcəkdə dəyişilə biləcəyini qeyd etmişdir. Uzaqgörən alimin qeydləri zamanla özünü doğrultmuşdur. Y.A.Paxomovun ölümündən sonra konkret olaraq, keçən əsrin 60-cı illərində Qəbələdə (Çuxur Qəbələ) və Şamaxıda (Xınıslıda) aparılan arxeoloji qazıntılar zamanı tapılan dəfinələr alimlər tərəfindən araşdırılmış və çox mühüm elmi yeniliklər əldə edilmişdir. Bu araşdırmalar zamanı İ.A.Babayev və S.M.Qazıyev Azərbaycan numizmatika elmində ilk dəfə "varvar" və yaxud "yerli bənzətmələr" adlı gümüş sikkələr haqqında elmi müddəalar irəli sürmüş və analoji tədavül vasitələri kimi miladdan öncə III əsrdən etibarən, Makedoniyalı İsgəndərin dağılmış imperiyasının ucqarlarında periferiyalarında oxşar sikkələrin yerli bazarlar üçün zərb edilməsi, vaxtilə o dövlətin ərazisində olan Azərbaycanda da həyata keçirildiyini sübut etmişlər. Dünya numizmatika elmində, xüsusilə, Avropada bu müddəa barəsində həmin illərdə kifayət qədər məlumat vardır. Periferiyaların sərhədlərinin köhnə imperiya ilə eyni olduğunu araşdıran əcnəbi alimlər Azərbaycanda bu cür sikkələrin olub-olmamasından, demək olar ki, göstərilən tapıntılara qədər məlumatları yox idi. Ancaq Azərbaycan alimlərinin əcnəbi ədəbiyyatla ciddi araşdırmaları ərazimizdə yerli sikkə zərbi üçün imperiyanın digər yerlərində olduğu kimi müəyyən özünəməxsusluqları ilə həyata keçirilməsi sübuta yetirildi.

Ümumiyyətlə, xüsusi olaraq qeyd etmək lazımdır ki, numizmatikaya aid olan mövzuların araşdırılması zamanı sikkələrin və dəfinələrin tapıntısı böyük əhəmiyyət kəsb edir. Araşdırdığımız mövzunun öyrənilməsi zamanı ölkəmizdə keçən əsrin əvvəllərindən davamlı olaraq həyata keçirilən qazıntıların nəticələri əsas mənbə kimi işə cəlb olunmuşdur.

Məhz ayrı-ayrı qazıntı sahələrindən tapılan numizmatik materialların öyrənilməsi zamanı əcnəbi dillərdə yazılmış elmi ədəbiyyat yararlı olur. Qeyd etdiyimiz kimi, ölkəmizin siyasi və iqtisadi tarixi dünya tarixindən heç vaxt kənarda qalaraq, istisna təşkil etməmişdir. Ona görə də vaxtilə mövcud olan böyük imperiyalarda – Roma, Parfiya, Ərəb Xilafəti, Səlcuqlar, Hülakilər və digərlərinin tərkibində olan Azərbaycanda pul işi bu dövlətlərin sikkə zərbi işi ilə eyni olduğundan, hər belə bir tapıntı zamanı əcnəbilərin çap işləri araşdırmalara əsas köməklik göstərir. Bütün bunlarla yanaşı, keçən əsrdə mövzunun öyrənilmə vəziyyətinin şərhi zamanı çap olunmuş iki əhəmiyyətli əsəri - Ə.M.Rəcəblinin "Azərbaycan numizmatikasının inkişafında rus alimlərinin xidmətləri" adlı dəyərli məqaləsini, T.Ə.Quliyevin "Azərbaycan numizmatikası Y.A.Paxomovun tədqiqatlarında" adlı namizədlik dissertasiyasını qeyd etmək lazımdır. Hər iki əsərdə ilk dəfə konkret olaraq, əcnəbi alimlərin araşdırılmasına bu və ya digər şəkildə toxunulmuşdur.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Xarici ölkə alimlərinin əsərlərində Azərbaycan sikkəşünaslığı mövzusunun öyrənilməsində bir sıra əcnəbi və yerli numizmatların, həmçinin, müasir dövr tədqiqatçılarının əsərlərindən mənbə kimi istifadə olunmuşdur. Bunlardan Y.A.Paxomov, X.M.Fren, V.Q.Tizenqauzen, P.S.Savelyev, V.V.Qriqoryev, A.K.Markov, R.R.Fasmer, B.İ.Bartolomey, B.A.Dorn, İ.N.Berezin, A.A.Bıkov, H.L.Rabino, Stenli Len-Pool, F.Soret, R.Göbl, G.Wolker, D.Lang, W.Marsden, A.Mortman, T.S.Kuteliya, A.İ.Amiranişvili, İ.L.Calaqaniya, Q.F.Dundua, D.Q.Kapanadze, A.N.Zoqraf və bir çoxlarının adlarını çəkmək olar. Bu mütəxəssislərin əsərlərində xüsusilə dövlətimizin və dövlətçiliyimizin tarixi üçün mühüm əhəmiyyət kəsb edən sikkə materialları tədqiqat obyekti kimi öyrənilmişdir. Onların hər birinin araşdırmasında Azərbaycan numizmatikası nümunələri mümkün qədər ayrıca öyrənilmiş və dəqiqləşdirmə işləri aparılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi və qarşıya qoyulan vəzifə, yazılı mənbələr və arxeoloji tapıntılar əsasında XIX-XX əsrlərdə, həm də müstəqillik illərində əcnəbi alimlərin əsərlərində Azərbaycana aid olan numizmatik materialları araşdırmaqdır. Ona görə də, qarşıya qoyulan məqsədi reallaşdırmaq üçün konkret olaraq aşağıdakı

məsələlərin həllinə cəhd göstərilmişdir:

- Əcnəbi alimlərin əsərlərində Azərbaycan tarixi üçün mühüm mənbə olan mövcud numizmatik materialların öyrənilməsi.

- Bu əsərlərdəki numizmatik materiallar əsasında ayrı-ayrı əcnəbi alimlərin elmi mülahizələrinə yeni elmi baxışla yanaşaraq, analiz etmək və müasir dövrün tələblərinə uyğun olaraq, onların rolunu və ya əhəmiyyətini yenidən təyin etmək.

- Dövlətlərin sosial-iqtisadi quruluşuna uyğun olaraq, ideoloji baxımdan zaman-zaman yalnız adları çəkilən Azərbaycan zərbxanalarının dünya miqyasında siyasi, ticarət münasibətlərindəki yeri və rolunu dəqiqləşdirmək.

- Azərbaycanın ən qədim dövlətlərindən XIX əsrin I yarısına qədərki sikkə zərbi işi də daxil olmaqla, numizmatika sahəsində müəyyən boşluqların və bəzi problemlərin öyrənilməsi baxımından, bu materiallara yenidən müraciət etmək.

- XXI əsrin əvvəllərində bəzi elmə məlum olan əcnəbi alimlərin əsərlərində Azərbaycanın numizmatik materiallarıyla tanış olaraq, yeni elmi mülahizələri üzə çıxarmaq.

**Tədqiqatın metodoloji bazası.** Dissertasiya işinin metodoloji əsasını tarixi hadisə və prosesləri inkişafda dərk etməyə, eyni zamanda, obyektiv nəticələr çıxartmağa imkan verən dialektik materialist baxış təşkil edir.

Dissertasiya işi yazılarkən, mövzuya aid xarici ölkə alimlərinin əsərlərindən istifadə olunmasında müasir numizmatika elmində qəbul edilmiş tipoloji təhlillə yanaşı, həmçinin Azərbaycan numizmatlarının da qəbul etdikləri müqayisəli təhlil metodundan istifadə olunmuşdur. Mövzunun tədqiqi zamanı dissertant cəmiyyətin inkişaf qanunauyğunluqlarına xüsusi önəm vermiş, tarixi ədəbiyyata, muzey materiallarına əsaslanmış, topoqrafik, ikonoqrafik, metroloji təhlil, statistik metodlar əsas götürülmüş, bu isə mövzunun səmərəliliyini daha da artırmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq, xarici ölkə alimlərinin əsərlərində Azərbaycanın numizmatik materialları öyrənilmiş, onların Azərbaycanın sosial-iqtisadi və siyasi münasibətlərinin öyrənilməsində əhəmiyyəti göstərilmişdir.

Tədqiqatçı rus, gürcü, eyni zamanda, digər xalqların mütəxəssisləri tərəfindən çap olunmuş əsərləri qruplaşdırmış və numizmatika elminin yeniliklərinə əsasən, Azərbaycan xalqının milli mənafeyinə uyğun olan, yeni elmi nəticələr əldə etmişdir. Belə yeniliklər sırasında dissertantın Azərbaycan dövlətlərindən Atropatena, Şəddadilər, Səfəvilər, Hülakilər və digərləri haqqında apardığı analizlərin nəticələrini qeyd etmək olar. O cümlədən, bəzi əcnəbi numizmatların qədim Azərbaycan dövlətlərindən Atropatenanın sikkə zərbi haqqında olan tədqiqatlarla tanış olmuş və müəllif tərəfindən onların müəyyən qərəzli yanaşmaları elmi təhlil vasitəsilə tədqiq edilərək, onların müddəaları inkar edilmişdir. Digər qrup əcnəbi alimlərin Azərbaycan Səfəvilər imperiyası haqqındakı subyektiv fikirləri elmi əsaslarla dəqiqləşdirilmişdir. Bununla da, dünya tarixində bəzi dövlətlərin sərhədləri barəsində olan fikirlər sırasında Azərbaycanın orta əsrlərdəki dövlətləri haqqındakı mülahizələr demək olar ki, yenidən öyrənilmiş, bir çox hallarda zərbxana adlarının düzgün oxunuşu və dəqiq lokallaşdırılması topoqrafik təhlillər nəticəsində müəyyən yeni mülahizələr irəli sürülmüşdür.

Tədqiqatçı təhlillər zamanı yalnız xarici ölkə alimlərinin deyil, həmçinin, milli numizmatların son illərdə çap olunmuş əsərlərinə də müraciət etmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Sikkə nümunələrinin Azərbaycan dövlətçilik tarixinin öyrənilməsi baxımından əhəmiyyəti çox böyükdür. Elə buna görə də, ayrı-ayrı xarici ölkə alimlərinin əsərlərində rast gəlinən Azərbaycana aid olan sikkə nümunələri araşdırılaraq, ölkənin inkişafındakı tənəzzül və inkişaf dövrü müəyyənləşdirilmişdir.

Əcnəbi alimlərin Azərbaycan numizmatikasına aid olan əsərləri kompleks şəkildə öyrənilmişdir. Buna görə də, araşdırmalar nəticəsində əldə olunmuş yeni elmi nəticələrin problemli məsələlərin öyrənilməsində əhəmiyyəti böyükdür. Bu baxımdan, dissertasiyanın materialları monoqrafiya kimi çap olunub, istər yerli, istərsə də xaricdəki geniş oxucu kütləsinə çatdırıla bilər. Azərbaycan və Qafqaz numizmatikası üzrə dərslik və ya metodik vəsaitlərin hazırlanmasında tətbiq oluna bilər. Əldə olunmuş bir sıra yeni faktlar əsasında numizmatika elminə aid ümumiləşdirici əsərlərin yazılmasında istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** "Xarici ölkə alimlərinin əsərlərində Azərbaycan numizmatikası" adlı elmi tədqiqat işinin əsas nəticələri Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Numizmatika" şöbəsində müzakirə olunmuşdur. Dissertasiya mövzusu üzrə ayrı-ayrı nəşrlərdə məqalələr çap olunmuş və elmi ictimaiyyətə çatdırılmışdır.

Tədqiqat işinin yekunları haqqında, habelə, respublika və beynəlxalq əhəmiyyətli konfranslarda, xarici ədəbiyyatda elmi məruzə və məqalələrlə çıxışlar edilmişdir.

**Dissertasiyanın quruluşu.** İşin quruluşu giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatdan ibarətdir. Dissertasiyaya mövzuya aid illüstrativ materiallar əlavə olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın xronoloji çərçivəsi, problemin öyrənilmə vəziyyəti, mənbəşünaslığı, metodoloji bazası təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, eyni zamanda, dissertasiyanın aprobasiyası göstərilmişdir.

**"Rus alimlərinin əsərlərində Azərbaycan numizmatikası"** adlanan I fəsil üç bölmədən ibarətdir.

**"Çarizm zamanında rus alimlərinin əsərlərində Azərbaycan numizmatikası"** adlanan birinci bölmədə, nəinki Rusiyada, o cümlədən, dünyada tanınan numizmat-alimlərin əsərlərində Azərbaycan numizmatikası və onun şəhərlərinin zərbxanaları, həmçinin zərbxanalarda kəsilən pullar haqqında geniş məlumatlar verilmişdir. Bildiyimiz kimi, Azərbaycanın qədim əraziləri həmişə xarici dövlətlərin maraq dairəsində olmuşdur. Azərbaycanın təbii sərvətləri ilə yanaşı, maddi-mədəniyyət nümunələri də vəhşicəsinə talan edilərək, buradan dünya ölkələrinə daşınmışdır. Belə dəyərdə qiymətli, çəkidə az olan maddi-mədəniyyətlər sırasına sikkə nümunələri də aiddir.

I Pyotr tərəfindən əsası qoyulan Kunstkamera sonralar genişləndirilərək və daha da zənginləşdirilərək Ermitaj adlandırılmış və

bura dünyanın hər tərəfindən cürbəcür yollarla yığılan nadir sənət əsərləri, o cümlədən işğal edilən ərazilərdən daşınan sikkələrin toplandığı Münskabinetə araşdırmalar aparmaq üçün tanınmış mütəxəssis-alimlər dəvət edilmişlər. Onların gərgin əməyi nəticəsində imperiyanın və Rusiyanın tarixində ilk dəfə numizmatika fondu kataloqlaşdırılmış və elmi əsərlər qələmə alınmışdır. İlk sikkə kataloqu 1745-ci ildə Q.Y.Ker və H.Krusius tərəfindən çap olunmuşdur. X.M.Frenin Ermitajın zəngin Asiya muzeyinə rəhbərliyə keçməsi ilə Rusiyada, o cümlədən Şərqi Avropada "Şərq numizmatikası elminin" əsası qoyulmuşdur. Onun tərtib etməyə başladığı müsəlman sikkələrinin kataloqu tələbəsi B.A.Dorn tərəfindən sona çatdırılmışdır. Bu əsər "Resensio numorum Muhammedanorum" başlığı altında Ermitajda həmin illərdə saxlanılan bütün sikkələrin elmi-numizmatik təsvirinə həsr edilmiş və bu günə qədər göstərilən mövzuda yazılan ən mükəmməl, demək olar ki, səhvsiz bir kitabdır. Bu kataloqda Azərbaycanın qədim şəhərlərindən Təbriz, Şamaxı, Guştaspi, Şabran, Ərdəbil, Xoy, Bakı, Əlincə, Astara, Sultaniyyədə Cəlairi hökmdarlarının adından zərb edilmiş dirhəmlər barəsində, həmçinin, Dərbənddə Əmir Teymurun, Cağatay hökmdarları Sultan Mahmudun, Qaraqoyunlu Pir Budağın, Qara Yusifin, İsgəndərin və Cahanşahın adlarından zərb edilən gümüş dirhəmlərin numizmatik təsviri verilmişdir. X.M.Frenin 1832 ci ildə çap etdirdiyi "İlchanorum seu chulagidarum numis" adlı əsərində Qızıl Orda xanlarından Toxtamışın Azərbaycandakı qısamüddətli sikkə zərbi işi haqqında məlumatlar vardır. Bu iki akademik əsərdən başqa, alimin silsilə xarakterli məqalələrində Azərbaycan hökmdarlarının zərb işi müəyyən qədər öyrənilmişdir. X.M.Frenlə eyni dövrdə yaşamış F.Soret, B.İ.Bartolomey Şirvanşahlar dövlətinin yaranma tarixində önəmli yer tutan bəzi hökmdarlar haqqında da mülahizələr irəli sürmüşdür. X.M.Frenin numizmatika sahəsində gördüyü işlərin ən dürüst qiymətini onun davamçısı və yetirməsi olan V.Q.Tizenqauzen verərək, müəllimini "Şərq numizmatikasının knyazı" adlandırmışdır. Sonralar V.Q.Tizenqauzen sələfinin işlərini davam etdirərkən Azərbaycanın Elxanilər dövlətinin tərkibindəki 100 illik zamanında zərb edilmiş sikkələr haqqında araşdırma aparmışdır. Onun araşdırdığımız mövzuya uyğun əsərlərindən biri "Şərq xilafətinin sikkələri" adlanır və Qızıl Orda xanlarının pul dövriyyəsinə həsr

edilmişdir. Adı çəkilən alimin numizmatika elminin inkişafında əsas işlərindən biri onun ilk dəfə davamlı olaraq Rusiyanın tanınmış zəngin insanlarının kolleksiyalarını öyrənməsi və elmə daxil etməsi idi. 1818-1896-cı illərdə yaşayıb-yaratmış İ.N.Berezinin Azərbaycan numizmatikasının öyrənilməsi tarixində əhəmiyyətli rolu vardır. Xüsusi qeyd etmək lazımdır ki, o, azərbaycanlı Mirzə Kazım bəyin tələbəsi olmuş və bütün elmi yaradıcılığını Yaxın və Orta Şərq ölkələrinin tarixinə, filologiyasına, arxeologiyasına və numizmatikasına həsr etmişdir. İ.N.Berezin X.M.Frendən sonra yeni toplanmış materiallar əsasında ikinci dəfə Cəlairi dövlətinin sikkələrinin kataloqunu hazırlamışdır. Sonrakı illərdə Ermitajda numizmatika fonduna A.K.Markov rəhbərlik etdikdə bu mövzuya yenidən müraciət etmiş və daha ətraflı, eyni zamanda, mükəmməl bir əsər çap etdirmişdir. Onun yaradıcılığında mühüm yerlərdən birində olan Şərq numizmatik materiallarına həsr etdiyi əsər "İmperator Ermitajındakı müsəlman sikkələrinin inventar kataloqu" adlanır. A.K.Markov ilk dəfə muzeylərin tarixində sikkələri fondlarda yerləşdiyi daxilolma kitablarındakı inventar saylarına görə yerləşdirərək, geniş numizmatik təsviri elmə daxil etmişdir. Bu əsərə görə, indiyə qədər azərbaycanlı numizmat-alimlər ölkəmizdə zərb edilən sikkələrin Ermitajda hansı say adında yerləşdiyini asanlıqla təyin edə bilirlər. Xüsusi qeyd etmək lazımdır ki, bu fondlardakı inventar sayları dəyişilmədən günümüzə qədər eynilə saxlanılır. Bu işdə də A.K.Markovun böyük zəhməti olmuşdur. Azərbaycan numizmatika elminin öyrənilməsində A.K.Markovun üçüncü akademik monoqrafiyası olan "Şərq sikkə dəfinələrinin topoqrafiyası" (Sasanilər və kufi) adlı kitabının elmi dəyəri günümüzə qədər orta əsrlərin pul sistemi ilə məşğul olan mütəxəssislər üçün önəmli əhəmiyyət daşıyır.

Beləliklə, XX əsrin əvvəllərinə qədərki zaman əksər rus alimlərinin əsərlərində Azərbaycan numizmatikasına dair maraqlı məlumatlar vardır. Bu faktların bəziləri öz elmi dəyərini zamanımıza qədər saxlasa da, onların əksəriyyəti azərbaycanlı numizmatlar tərəfindən yenidən tədqiq edilmiş və lazım gəldikdə əsaslandırılmış düzəlişlər edilmişdir.

"**Azərbaycan numizmatikası 1920-1991-ci illərdə sovet-rus alimlərinin əsərlərində**" adlanan ikinci bölmədə ölkəmizin sovetlər

imperiyası daxilində olduğu zamanda yazılan əsərlər araşdırılmışdır.

1920-ci ildə çar Rusiyasında bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə əslində, dövlətin adının dəyişdirilməsindən başqa bir yenilik həyata keçirilmədi. Xarakter etibarilə çarizmin müstəmləkəçilik iddia və metodları ayrı bir "dona" girsə də, XVII əsrdən imperiya daxilində həyata keçirilən "parçala və hökm sür" siyasəti davam etməkdə idi. Bununla belə, zorla ilhaq edilmiş ölkələrdən olan Azərbaycanda bir sıra elm sahələrinin yaranması məsələsi də birbaşa mərkəzdən – Moskvadan idarə edilirdi. Belə ki, sovetlər ittifaqı zamanında imperiyada olduğu kimi rus alimləri ayrıca bir mövzu olaraq Azərbaycan numizmatikasına hansısa bir sanballı əsər həsr etməmişlər. Araşdırmalar məqalələr şəklində olaraq, ümumi Şərq sikkə sistemi daxilində öyrənilirdi. Rus-sovet dövrü alimlərindən R.R.Fasmer ilk dəfə Azərbaycanın feodal dövlətlərindən olan Sacilərin sikkə işi barəsində iki məqalə dərc etdirmişdir.

Digər bir alim-numizmat A.A.Bıkov yazmış olduğu bəzi məqalələrdə Saci hökmdarlarından Deysəm ibn İbrahimin adından Azərbaycanın mərkəzi şəhərlərində dövriyyəyə buraxılan dinar və dirhəmlər haqqında numizmatik analizlər aparmışdır. Onun ən önəmli elmi müddəalarından biri "Azərbaycan" zərbxanasının məhsullarının ilk dəfə Sacilərin hakimiyyəti zamanında 941-ci ildə dövriyyəyə buraxılması haqqındakı elmi nəticədir.

Şərq ölkələrinin bir çox tarixi problemlərinin araşdırılmasında Azərbaycan numizmatik materiallarından istifadə etmiş görkəmli alim-arxeoloq Q.A.Fyodorov-Davıdovdur. Onun əsərlərinin əsas mövzusu monqol dövlətlərindən olan Qızıl Orda ilə Azərbaycan arasında olan əlaqələrinə həsr edilmişdir.

Fəslin üçüncü bölümü **"Müasir dövrdə Rusiya alimlərinin əsərlərində Azərbaycan numizmatikası"** adlanır.

XXI əsrin ilk onilliyində dünyada baş verən qlobal dəyişikliklər sırasında bir çox elm sahələrinə də yenidən "baxış" keçirilir. Belə dəyişikliklərə, yeni ideyalara məruz qalan elmlər sırasında numizmatika və numizmatik materialları da göstərmək olar. Bu bölmədə müasir dövrdə Rusiya alimi Q.V.Zlobinin əsərlərində Şirvanşahların sikkə materiallarının öyrənilməsi tarixində ilk dəfə olaraq dövlətin son 172 ilinin 151 ədəd

sikkənin öyrənilməsi işinə həsr olunduğu haqda müəyyən məlumatlar verilir. Həmçinin, Dərbəndilər dövlətinin hakimiyyət illərinin tarixi təsviri, eyni zamanda, sülalənin elmə məlum olan gümüş və mis sikkələrinin kataloqu haqda da məlumat verilir. Azərbaycan numizmatikası üçün çox dəyərli məlumat qismində bu bölmədə ayrıca başlıqla sikkələrin üzərində təkrar zərb nümunələri araşdırılmışdır.

Azərbaycanın numizmatik abidələri həmişə əcnəbilərin araşdırmalarının diqqət mərkəzində olmuşdur. Son 20-30 ildə Cənubi Qafqazda baş verən siyası hadisələr, buranın coğrafi xəritəsində edilən dəyişikliklər, etnik, dini və milli məsələlərin qərəzli şəkildə önə çıxarılaraq, dünya çapında siyasi dəyişikliklər etmək cəhdi təəssüflər olsun ki, arxeoloji artefaktlardan olan sikkə nümunələri də bəzi hallarda siyasətdən və silahlardan öndə gedən mənbəyə çevrilmişdir.

Bu cür tarix elminin əsas mənbələrindən olan numizmatik nominalları öz bədnam məqsədlərinə yönəldənlərdən biri də Moskvada yaşayan A.Akopyan adlı bir erməni alimidir. O, 2012-ci ildə Gürcüstanda-Tiflisdə keçirilən növbəti "Qafqazın arxeologiyası, etnologiyası, folkloru" adlı Beynəlxalq konfransın məqalələr toplusunda Azərbaycanın Şəddadilər dövlətinin yaradıcılarının nəsli şəcərəsini bir ədəd sikkəni düzgün təyin etməyərək bütövlükdə dəyişmək fikrinə düşür. Sikkənin üzərində orta əsrlərə aid heç bir mənbədə adı olmayan hansısa Aşot ben Şavurun 460-461-ci h. ilində (1072 - 1073-cü illər) zərb edildiyini önə çəkərək Şəddadilər dövlətinin etnik kökünü erməniləşdirməyə cəhd etmişdir. Bu, azmış kimi, bir qədər də irəli gedərək Şəddadilərin ana xətti ilə erməni Baqratilərdən olduğunu və "qədim erməni şəhərlərindən Dəbil və Anidən qanuni hakimiyyətə gəldiklərini" sübut etməyə çalışmışdır.

Sözsüz ki, nə dünya, nə də Azərbaycan numizmatları bu cür cəfəngiyatı qəbul etmirlər. Əsas arqument məqalədə təsviri verilən sikkənin üzərində bütün yazıların ərəb əlifbası ilə olması və hökmdarın soyadı göstəricisinin "bin" kəlməsi ilə göstərilməsidir. Həmin şəkli diqqətlə araşdırdıqda orada İsgəndər bin Şavurun adı aydın təyin edilir.

"**Azərbaycan numizmatikası Gürcüstan alimlərinin əsərlərində**" adlı II fəsildə gürcü alimlərinin Azərbaycan zərbxanaları və həmin zərbxanalarda vurulan pullar haqqında geniş, eyni zamanda, sanballı

məlumatlar xüsusi yer tutur.

Nəinki, Azərbaycanda, ümumilikdə, Cənubi Qafqazda yerləşən sovet respublikalarında numizmatika elminin əsasını qoyan Y.A.Paxomov ilk elmi fəaliyyətinə Tiflisdə başlamışdır. Onun yazmış olduğu ilk əsərləri məhz bu ölkə ilə bağlı olaraq "Gürcüstan sikkələri" adlanır. Əsərdə ilk dəfə alim qonşu dövlətin ərazisində rəsmi dövriyyədə olan sikkələri araşdırarkən xeyli sayda Azərbaycan şəhərlərinin sikkələrini təsvir etmişdir. İlk dəfə məhz Y.A.Paxomov Azərbaycan numizmatikasının öyrənilməsində gürcü mənbələrindəki məlumatları onların muzey fondlarında saxlanılan, həmçinin, bəzi şəxsi kolleksiyalardakı sikkələr barəsində elmi məlumatları qələmə almışdır. Sonrakı illərdə D.Q.Kapanadze, S.M.Şamba, L.İ.Calaqaniya, Q.F.Dundua, T.S.Kuteliya, M.A.Tsotseliya əsərlərində bizim tarixi şəhərlərdə zərb edilən və Gürcüstan ərazisində dövriyyədə olan və orada qazıntılar zamanı aşkar edilən sikkələri və dəfinələri araşdırmışdır. Azərbaycanın tarixinin və numizmatikasının öyrənilməsində ən dəyərli elmi araşdırmalar gürcü alimi D.Q. Kapanadzenin əsərləridir. Alim hələ keçən əsrin I yarısında antik dövrdə Qafqazda A.N.Zoqrafın və Y.A.Paxomovun yanlış olaraq adlandırdıqları "Qafqaztipli" sikkələrin deyil, yerli "bənzətmə" sikkələrin "Abşerondan Tamana qədər "zərb olunduğunu və aşkar edildiyini qeyd etmişdir. Sonrakı illərdə alimin irəli sürdüyü bu müddəa tapıntılarla öz yerini təsdiqləmişdir.

Gürcü numizmat-alimlərinin yazmış olduqları əsərlərin Azərbaycan tarixinin, xüsusilə, ticarət yollarının öyrənilməsi işində mühüm əhəmiyyəti vardır. Belə ki, bütün Cənubi Qafqaz ərazisindən keçən ticarət-karvan yollarının istiqamətlərini aşkar edən sikkələrə əsasən, öyrənən gürcü alimləri onların nə zaman və mütləq şəkildə, şərhsiz olaraq, Azərbaycandan keçdiyini sübut etmişlər. Hər iki respublikanın ərazisindən arxeoloji qazıntılar zamanı aşkar edilən sikkələr əsasında dövriyyəyə qatılan və ya əksinə dövriyyədən çıxan sikkələrin analizi ilə ərazilərimizin hansı imperiyaların, yaxud dövlətlərin təsir dairəsində olmasını müəyyənləşdirərək, çox mühüm elmi nəticələr əldə etmişlər. Bu baxımdan antik dövrün ortalarında indiki Azərbaycan, o zamankı Qafqaz Albaniyasının Romadan asılılıq dərəcəsi təyin edilmiş və bu

münasibətlərin çox zəif olması sübut edilmişdir. Konkret olaraq bu məsələ ilk dəfə Q.F.Dundua tərəfindən dəqiqləşdirilmişdir.

Gürcü alimlərindən İ.L.Calaqaniya vaxtilə Y.A.Paxomovun tələbəsi qismində bir neçə il Bakıda yaşamışdır. İlk elmi təcrübəsini bizim ölkəmizdə keçən xanım numizmat sonralar bütün elmi yaradıcılığında Azərbaycan şəhərlərinin və dövlətlərinin sikkə zərbi işinə əsas xətt olaraq yanaşmış, maraqlı araşdırmalar aparmışdır. Daha dəqiqi, erkən orta əsrlərdə Azərbaycan-Gürcüstan iqtisadi münasibətlərini araşdıran alim bəzi əsərlərində Azərbaycanın ilk dövlətlərindən olan Atropatenada zərb edilən sikkələrə şübhə ilə yanaşmış və bu adda dövlətin Azərbaycana aid olmamasını sübut etməyə cəhd göstərmişdir. Lakin elə özü də əsərlərində "Atra-AT" monoqramlarının Atropatenaya məxsus olmasını ondan əvvəl XIX əsrdə alman alimi A.D.Mortman və XX əsrdə G.Wolkerin dəqiq olaraq təyin etdiyini xüsusi qeyd edir. Adı çəkilən alimlər öz əsərlərində numizmatik materiallardan başqa, arxeoloji və yazılı mənbələrə əsasən, Atropatenanın bir hissəsinin indiki Şimali Azərbaycanda olmasını sübut etmişlər. Sonralar bu problem özünün tam həllini M.Ə.Seyfəddininin əsərlərində tapmışdır. Belə ki, mərhum professor göstərilən monoqramlı sikkələrin Azərbaycanın qədim şəhəri olan Ərdəbildə zərb edildiyini sübut etmişdir. Gürcü alimlərindən S.M.Şamba araşdırdığı minlərlə sikkələr üzərində apardığı elmi təhlillər nəticəsində VI-IX əsrlərdə Gürcüstanda dövriyyədə olan sikkə dəfinələrinin – Sasani və erkən ərəb sikkələrindən ibarət olduğunu və onların əsasən, Azərbaycan şəhərlərində zərb edildiyini sübut etmişdir. Müəllifin ehtimallarına görə, bu cür sikkələr ticarət əlaqələri vasitəsilə Azərbaycanın Qax-Katex-Tovuz, həmçinin, Kür çayı boyunca Göyçay-Mingəçevirdən keçərək, Laqodexə və Kvarel bölgəsinə daxil olmuş, sonra ərəb dövrünün erkən kufi sikkələri ilə qarışmışdır.

Azərbaycanın feodal dövlətlərindən 1000 ilə yaxın tarixə malik olan Şirvanşahlar dövlətinin gürcü dövləti ilə ayrı-ayrı zamanlarda münasibətləri barəsində əlyazmalarda məlumatlar vardır. Bu münasibətləri özündə əks etdirən ən dəyərli maddi-mədəniyyət nümunələrindən olan numizmatik abidələr Azərbaycan alimləri ilə bərabər, həm də gürcü alim-numizmatları tərəfindən öyrənilmişdir. Bu barədə geniş araşdırma aparan Q.F.Dundua və İ.L.Calaqaniya olmuşlar. Onların həmmüəllifləri ilə

1973-cü ildə çap etdirdikləri “Gürcüstanda XI əsrdə Şirvan sikkələrinin dövriyyəsi” adlı məqalədə Gürcüstandan aşkar edilən və Şirvanşahlara aid olan sikkə dəfinələri topoqrafik analiz edilərək onların tərkibi, yayılma arealı və bəzi metroloji məsələlər öyrənilmişdir. Nəticədə, XI əsrdə Gürcüstanın Azərbaycan türklərinə aid dədə-baba yurdlarından olan Borçalıda bütövlükdə Şirvanşahların sikkələrinin dövriyyədə olması sübut edilmişdir. Bu zaman Tiflis Müsəlman Əmirliyində hakimiyyətdə olan Cəfərilər sülaləsi tərəfindən zərb edilən dirhəm və fulusların Avropa ölkələri ilə ticarət əlaqələrində digər Şərq ölkələri sikkələriylə bərabərhüquqlu tədavül vasitəsi olması məsələsi dəqiqləşdirilmişdir. Gürcü alimlərinin araşdırmalarına görə, bu cür sikkələr XIII əsrin sonlarına qədər Şərqi Gürcüstan, İrəvan və Karsı belə pulla təmin etmişlər.

Sonrakı yüzilliklərdə Gürcüstan Səfəvilər tərəfindən işğal edildikdə, Tiflis zərbxanası yenidən fəaliyyətə başlayır və puli-pul adlı mis fuluslar dövriyyəyə daxil olurlar. Məhz gürcü numizmatlarının araşdırması nəticəsində bu nominalların bütün Cənubi Qafqazda, İranda və Orta Asiyada qəbul edilməsi üzə çıxarılmışdır. Gürcü alimlərinin ümumqafqaz xarakterli numizmatik materialları araşdırmaları kimi prioritet xətt günümüzə qədər davam etməkdədir. Bu cür klassik əsərlərdən biri də M.Tsotseliya tərəfindən qələmə alınmış və “Sasanilərin sikkələri” adlı monoqrafiya Fransada məşhur “Numizmatika klubu” tərəfindən çap olunmuşdur. Müəllif əsərində Gürcüstanda XX-XXI əsrin əvvəllərində aşkar edilən və ölkəsinin milli muzeylərində saxlanılan bəzi dəfinələri araşdırmışdır. Azərbaycan numizmatikası üçün burada ən dəyərli məlumatlar Sasanilər zamanında bizim şəhərlərimizdə zərb olunan pullar haqqında olan təhlil və təsvirlərdə öz əksini tapmışdır.

Araşdırmaların nəticələrinə əsasən, müəyyən etmək olur ki, gürcü alimlərinin irəli sürdüyü elmi mülahizələr Azərbaycan numizmatika elminin bəzi məsələlərini öyrənmək baxımından çox əhəmiyyətlidir.

“**Digər ölkə alimlərinin əsərlərində Azərbaycan numizmatikası**” adlanan III fəsil iki bölmədən ibarətdir.

“**Avropa alimlərinin əsərlərində Azərbaycan numizmatikası”** bölməsində qeyd edilmişdir ki, numizmatik araşdırmalar elmi mətbuata XIX əsrin əvvəllərindən daxil olmağa başlamışdır. Bu araşdırmaların ilkin

forması kiçik formatlı məqalələrdən ibarət olaraq ziyalılar arasında tanınmağa başlayan dərgilərdə yer alırdı. İlk belə dərgilərdən biri olan "The Arhaelogical Museum of the American University of Beirut" toplusunu qeyd etmək lazımdır. Bu dərginin səhifələrində Şərq numizmatikasına həsr olunan məqalələrdə az da olsa, Azərbaycan şəhərlərində zərb edilən sikkələr təsvir edilmişdir.

Digər bir maraqlı dərgi isə 1851-ci ildə Parisdə çap olunan "Memories de la societe imperiale D`archeolocie de Perse" dir. Dərginin növbəti saylarından birində fransız numizmat-şərqşünası F.Soretin Hülakilər imperiyası zamanında Tiflisdə, Təbrizdə zərb olunan pulları barəsində olan məqaləni diqqətə çəkmək lazımdır. İlk dəfə F.Soret bu məqalədə Hülaki xanın adından zərb edilən sikkələrin aversində hökmdarın titulları ilə birgə şiəlik rəmzini - Əliyyən Vəliyullah kəlamının göstərildiyini və zərb tarixinin 685 h. ili (1297-1298-ci illər) olduğunu təsvir edir. Bu fakt özlüyündə, nəinki, Azərbaycan numizmatikası üçün, həm də orta əsrlər tarixinin dini təriqətləri barəsində olan müddəaları alt-üst edir. Belə ki, dünya tarix elmində şiəliyin dövlət səviyyəsinə qaldırılması və bunun sübutu üçün sikkələrin üzərində Xəlifə Əlinin (ə.ə) və 12 imamın adının zərb edilməsi Səfəvi dövləti ilə əlaqədardır. Amma bu cür sikkələr təriqətlərin dövlət səviyyəsinə çıxarılması işinin Hülaki xanla bağlı olduğunu sübuta yetirir. Bu tip sikkələrin Azərbaycan şəhərlərindən Təbrizdə həyata keçirilməsi bir daha prosesin məhz bizim ölkəmizlə əlaqəsini təsdiqləyir. Həmin dərginin digər saylarından birində indiyə qədər Azərbaycan numizmatika elminə məlum olmayan müddəalardan, o cümlədən, Ağqoyunlu hökmdarı Yaqub bəyin adından buraxılan nadir sikkələrində həm bəy, həm də xan, yaxud Cahangirin sikkələrində "İsfahanın xanı Cahangir" kimi zərb edilməsi faktları elmi yeniliklər qismindədir.

Həmin illərdə Avropada nəşr olunan almandilli dərgilərdə B.A.Dornun silsilə məqalələri çap olunmuşdur. Bu məqalələrin ümumi sayı 21 ədəd olaraq, əsasən, antik və erkən orta əsrlərdə zərb edilən sikkələr barəsindədir. Alimin əsas müddəalarından biri Cənubi Qafqaz ərazilərinin miladdan öncə I əsrin ortalarından başlayaraq, Parfiyanın təsiri altında olması idi. Bu cür qiymətli elmi mülahizələr sonrakı yüzillikdə

aparılan arxeoloji qazıntılar zamanı öz təsdiqini tapmışdır.

Araşdırdığımız mövzu üzrə Fransanın Sarbon Universitetinin və Milli Elm Mərkəzinin tərkibində uzun illər fəaliyyət göstərən "Studia İranica" adlı məcmuənin önəmli yeri vardır. Dərginin cürbəcür saylarında M.F.Gignua, J.Adler, P.Bernard, C.Cahen, G.Lazard və başqalarının məqalələrində ayrı-ayrı vaxtlarda ölkəmizdə qədim dövrlərdə zərb edilən sikkələr və dəfinələr barəsində araşdırmalar vardır. Bu qəbildən xüsusi olaraq dərginin 1984-cü ildə çap olunan XIII cildində Elxanilər dövlətinin bütün hökmdarlarının adından dövriyyədə olan nominalların nümunələri geniş numizmatik təsvir edilmiş və maraqlı elmi nəticələr əldə edilmişdir. Bizim üçün elmə məlum olmayan zərbxana adlarından olan "Tel-Aras"-ın Naxçıvanda vaxtilə Araz çayı sahilində yaxın bir yerdə yerləşməsi M.R.Brome tərəfindən təsdiqlənmişdir. Azərbaycan numizmatika elmində bu adla qısa müddət işləyən zərbxananın Suqovuşana yaxın (indiki Sabirabad) Arazbarı, (yaxud indiki Biləsuvar), Beyləqan ərazisində olması barədə məlumatlar vardır. Maraqlı elmi araşdırmalar Azərbaycanın Elxanilər dövründə 1 il müddətində - 738 h. ili (1360-1361-ci illər) hakimiyyətdə olan Kəbir şahın adından zərb edilən sikkələr barəsində elmi araşdırmalardır.

"**Azərbaycan numizmatikası Asiya alimlərinin əsərlərində**" adlanan bölümdə yalnız İran alimi Seyid Camal Təbatəbainin məşhur əsəri araşdırılmışdır.

Asiya ölkələrindən İranda Seyid Camal Təbatəbainin fars dilində "İslam sikkələri" (Elxanilər və Qurqanilər dövrü) adlı çoxcildli əsərinin birinci cildində Azərbaycan şəhərlərinin orta əsrlər sikkə zərbi işi araşdırılmışdır. Azərbaycan numizmatikası elminin tarixində Elxanilər dövrünün sikkə zərbi işi ilə bağlı dəyərli monoqrafiya mərhum professor M.Ə.Seyfəddini tərəfindən çap edilmişdir. S.C.Təbatəbainin göstərilən əsərində bəzi sikkələr həmin kitabda öz yerini almamışdır. Görünür, buna səbəb sovetlər dövründə ölkənin bütövlükdə "informasiya blokadasında" olması ilə bağlı alimlərimizin əcnəbilərin əsərləri ilə tanış olmaması üzündən baş vermişdir. Bu səbəbdən də analoji mövzular ayrı-ayrı kontekstdən tam fərqli öyrənilmiş və nəticədə, kəskin təzadlar yaranmışdır. Bu qəbildən M.Ə.Seyfəddininin göstərilən əsərində qeydə alınmayan

"Azərbaycan" zərbxanasının Olcaytu Sultanun hakimiyyəti illərində sikkə zərbi işini həyata keçirməsidir. Bu dirhəmlərin əks-tərəfində dini simvollar İslamda qəbul edilən ilk dörd Rəşidi xəlifələrinin adları, zərb yeri Azərbaycan, zərb tarixi 706 göstərilməsi ilə bu fakt təsdiqlənir. Müəllifə görə, Azərbaycan adında olan zərbxana Həmədan şəhərində, yaxud Gilanda yerləşə bilərdi. Digər bir maraqlı fakt Azərbaycan tarixində məlum olmayan 1255-1256-cı illərdə hakimiyyəti idarə edən Elxani hökmdarı Oktay Kaanın adından dövriyyəyə buraxılan nadir gümüş dirhəmlər haqqında olan məlumatlardır.

"**Nəticə**". Azərbaycan numizmatikasının bəzi problemli, hələ də həllini tapa bilməyən məsələlərinin araşdırılmasında əksər hallarda əcnəbi mütəxəssislərin əsərləri köməklik göstərir. Mövzunun öyrənilməsi, ölkələrə görə məkan bölgüsü zamanı bu cür problemlərin həllinə bir çox obyektiv və subyektiv səbəblərdən daha çox rus və gürcü, az sayda olsa da, Avropa və Asiya alimlərinin son 150-200 ildə müraciət etmələrinin şahidi olduq. Diqqətimizdən yayınmayan ən mühüm məsələ ondan ibarət oldu ki, bütün əcnəbilərin yaşadıqları zaman və məkandan asılı olmayaraq, Şərq numizmatikası tarixi məsələlərinin araşdırmaları zamanı bizim qədim tarixə malik olan şəhərlərimizlə birbaşa bağlı olan maddi-mədəniyyət nümunələrinə üz tutmuşlar. Bu insanların heç birinin əsərlərinin adında ölkə kimi Azərbaycan, millət kimi Azərbaycan türklərinin dövlətçilik tarixi ilə bağlı heç bir araşdırma yoxdur. Amma özlərindən asılı olmayaraq, dünyanın bir çox yerlərinin fatehlərinin yaratdıqları imperiyaların tarixini, mədəni həyatını, iqtisadi məsələlərini öyrənərkən bizim ölkəmizi oradan kəsib ata bilməmişlər. Bu cür "kəsib atma" metodunu tətbiq edə bilməmələrinin əsas səbəblərindən biri də xalqımızın hələ antik dövrün əvvəllərindən dövlət quruculuğunu yerinə yetirmək qabiliyyətinə malik olmaları; bunun üçün ən vacib atribut olan sikkə və sikkə zərbi işini böyük ustalıqla həyata keçirmək bacarıqları olmuşdur. Əcnəbi alimlərin heç biri öz kiçikhəcmli məqaləsində belə ölkəmizin sikkə tarixinin, yəni dövlətçiliyinin 2500 illik dönəminin olmasını, ümumilikdə cəmi əlli ilə yaxın, üst-üstə götürdükdə ayrı-ayrı vaxtlarda siyasi məsələlər, işğallar və müharibələrə görə zərb işinin dayandırılması haqqında məlumat yoxdur. Bundan başqa, şəhər mədəniyyətimizin tarixində mühüm rol oynayan

Naxçıvan, Təbriz, Gəncə, Bərdə və Dərbənddə bu işin demək olar ki, fasiləsiz olaraq həyata keçirilməsi faktlarını yaşadıqları ölkələrdəki muzeylərin numizmatika fondlarında yerləşən sikkələr və dəfinələr üzərində apardıqları araşdırmalarla sübuta yetirmişlər.

Azərbaycanda numizmatika elminin yaranma tarixinin yaşı Avropadan iki dəfə azdır. Bu səbəbdən də Avropada yaşayan və yaradan dünyaşöhrətli alim-numizmatlar bizim yerli mütəxəssislərdən təxminən 100-150 il öncə bu elmlə məşğul olmağa başlamışlar. Deməli, Azərbaycan tarixinin öyrənilməsində və problemli məsələlərin dəqiqləşdirilməsində xarici ölkələrin numizmatlarının əsərləri mühüm əhəmiyyət kəsb edir. Bizim numizmatik materiallar daha çox Rusiyada öyrənilməyə başlanılmışdır. Rusiya İmperatorluğunun Elmlər Akademiyasının humanitar sahə üzrə fəxri və həqiqi üzvlərinin hamısı demək olar ki, numizmatika ilə məşğul olmuşlar. Onlardan X.M.Fren, B.A.Dorn, A.K.Markov, V.Q.Tizenqauzen, V.V.Bartold kimi alimlərin əsərlərində sikkə materialları ən önəmli dəlillər sırasındadır. Bu imperiyanın sələfi olan sovetlər ölkəsində elmi araşdırmalar prosesi ilk onilliklərdə sadələşdirilmiş kimi görünsə də, yenə bu işlər əsasən, çar Rusiyasının "elitası" sayılan ziyalılara tapşırılmışdır. Bunlardan Azərbaycanda və Gürcüstanda numizmatika elminin əsasını qoyan Y.A.Paxomov gənclik illərində A.K.Markovun tələbəsi olmuş və onun yetirməsi olmuşdur. Sovetlərin ilk 30-cu illərinə qədər kommunist ideologiyası hələ tam formalaşmadığı üçün adı çəkilən alim materiallardan istifadə etmiş və heç zaman siyasi məsələləri numizmatika elminə qatmamışdır. Bütövlükdə XIX-XX əsrin birinci onilliyinə qədərki numizmatika üzrə elmi ədəbiyyatda Azərbaycan adı yoxdursa da, 1920-ci ildən başlayaraq, artıq bu proses başlayır və əcnəbi alimlərin əsərlərində, xüsusilə sikkələrin topoqrafik analizi zamanı və numizmatik təsvirində bizim ölkəmizin adı çəkilməyə başlayır. Avropa alimləri dəqiqləşdirmə məsələsində daha səlis olaraq araşdırdıqları sikkələrin zərb yerini göstərərkən bizim şəhərimizin adlarını çəkirlər. Bununla da Azərbaycanın rusların işğalına qədər natural təsərrüfatda yaşayan, feodalizm istehsal münasibətlərini minilliklərlə yaratmaq məcburiyyətdə olan, geridə qalmış bir xalqın yaşadığı yer olmadığını, pul-əmtəə münasibətlərini miladdan öncə III əsrdən mükəmməl şəkildə yerinə

yetirən bir dövlət olmasını qəbul etməli olmuşlar.

Yalnız bundan sonra daha dəqiq ifadə etsək, XIX əsrin sonlarından etibarən əcnəbi alimlər ayrı-ayrı Şərq dövlətlərinin və imperiyalarının pul nişanələrini öyrənərkən zərb tarixi və yerini göstərməklə kifayətlənməyib, ikonoqrafik üsulla bütün mövcud elementləri – bəzəkləri, dini dünyagörüşləri, kəlamları, canlı və cansız obrazları möhürlərin üzərində öyrənməyə başlamışlar.

Azərbaycanın milli numizmatlarının – M.Ə.Seyfəddini, Ə.M.Rəcəblinin əsərlərində xarici ölkə alimlərinin yaradıcılığına çox az müraciət edilməsinin əsas səbəbi sovetlər ölkəsinin uzun illər dünya informasiya məkanından kənarda qalmasıdır. Ölkəmiz müstəqillik qazandıqdan sonra gənc alimlərin qarşısında imkanlar açılmış və bu gün biz artıq ən azından informasiya texnologiyalarının köməkliyi ilə dünya numizmatika elmi haqqında məlumat toplaya bilirik. Bütün bunlarla yanaşı, XXI əsrin əvvəllərində keçən XIX-XX yüzilliklərdə numizmatik abidələrimiz barəsində olan məlumatların bir dissertasiya işində toplanması və analiz edilməsi nəticəsində müəyyən elmi müddəalar əldə edilmişdir.

Dissertasiyanın fəsil və başlıqlarında xarici ölkə numizmat-mütəxəssislərinin əsərlərində Azərbaycan numizmatikası üçün dəyərli məlumatlar öyrənilmiş, müqayisəli təhlil edilmiş və xeyli yeniliklər üzə çıxarılmışdır.

Sonda bir daha qeyd etmək lazımdır ki, bütün elmi sahələri təcrid olunmuş şəkildə öyrənmək, heç bir nəticə əldə etmək mümkün olmadığı kimi, numizmatika elminin dəqiq öyrənilməsində dünya alimlərinin əsərlərindən bəhrələnmək günümüzün əsas tələblərindəndir. Dünyada yeni qələmə alınan numizmatik əsərlərin obyektiv şəkildə dövlətimizin qəbul etdiyi azərbaycançılıq və türkçülük ideologiyası üzrə tədqiq edilməsi, gələcəkdə perspektivli məsələ kimi qalır. Tarix və tarixi hadisələrə yeni baxış, yeni metod və metodoloji bazaların bölüşərək öyrənilməsi və numizmatika elmində tətbiq edilməsi mövzunun ən vacib elmi nəticələrindəndir. Bu yolla biz dövlətimizin tarixinin vacib problemlərini daha dəqiq elmi əsaslarla öyrənə bilərik.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi**

**məqalələrində öz əksini tapmışdır.**

1. Денежное обращение и монетное дело при феодальных государствах Азербайджана Раввадидов, Саджидов, Саларидов и Шеддадидов в X-XI вв. Баку: Наука, 2006, 124 с. (həmmüəllif)
2. Gəncənin pullarına dair (tarixi-numizmatik esse) // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, Bakı: İlay MMC, 2007, №2, s. 299-303 (həmmüəllif)
3. Azərbaycanın antik dövr numizmatikasında gürcü alimi Q.F.Dunduanın əsərləri haqqında // Tarix və onun problemləri. Bakı: İlay MMC, 2007, №4, s. 333-336
4. D.Q.Kapanadzenin Azərbaycan numizmatikasıyla bağlı bəzi fikirləri // AMEA-nın Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı: Nafta-Press, 2008, №2, s. 92-95
5. Gürcü alimlərinin Azərbaycan numizmatikasının inkişafında rolu (İ.L.Calaqaniyanın əsərləri timsalında) // Bakı Universitetinin Xəbərləri. Bakı: Bakı Universiteti, 2008, №3, s. 207-210
6. Gürcü numizmatı T.S.Kuteliyanın əsərlərinin Səfəvilərin pul sisteminin öyrənilməsində rolu // AMEA-nın Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı: Nafta-Press, 2009, №1, s. 103-107
7. Bəzi əcnəbi alimlərin əsərlərində Bərdə pulları / Qarabağın tarixi, arxeologiyası, Etnoqrafiyası və Bərdə şəhərinin 3000 illiyi. Elmi praktik konfrans. 29-30 mart-2009-Bərdə, Bakı: AFPoliqrAF, s. 99-101
8. S.M.Şambanın əsərlərində Azərbaycan zərbxanalarının sikkələrinin yeri və rolu // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. Bakı: Elm, 2009, №11, s. 14-18
9. Велиева М.И. Нумизматические материалы Азербайджана в трудах русских ученых XIX – начало XX в. / Международная научная конференция «Археология, этнология, фольклористика Кавказа». Сборник кратких содержаний докладов. Тбилиси, 25-27 июня 2009 года. Тбилиси: Изд-во Меридиани, 2010, с. 97-98
10. S.C.Təbatəbainin əsərlərində Azərbaycan numizmatikasının bəzi problemləri // AMEA-nın Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı: Nafta-Press, 2010, №1, s. 156-161
11. Rus alimlərinin əsərlərində Azərbaycan numizmatikası (X.M.Fren

və V.Q.Tizenqauzenin əsərlərinə əsasən) // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. Bakı: Elm, 2010, №1-2, s. 138-147

12. Xarici dövrü ədəbiyyatda Azərbaycan numizmatikası // Kültür Evreni, Türkiyə-Ankara, 2010, №6, s. 206-213

13. Əcnəbi alimlərin əsərlərində Azərbaycan numizmatikası // Bakı Universitetinin Xəbərləri. Bakı: Bakı Universiteti, 2011, №3, s. 210-217

14. Əcnəbi alimlərin əsərlərində Azərbaycan numizmatikası (ən yeni əsərlər sırasında) // Bakı Universitetinin Xəbərləri. Bakı: Bakı Universiteti, 2011, №4, s. 213-217

15. Роль русских ученых в изучении вопросов нумизматики в Азербайджане // Сборник научных работ Гилея: Научный вестник. выр. 57, Украина: Киев, 2012, №2, с. 199-203

16. Azərbaycan numizmatikasının xarici dövrü ədəbiyyatda yeri və rolu //Bakı Universitetinin Xəbərləri. Bakı: Bakı Universiteti, 2012, №2. s. 161-168

17. Y.A.Paxomovun həyat və yaradıcılığı // Bakı Universitetinin Xəbərləri. Bakı: Bakı Universiteti, 2012, №3. s. 177-182

**Велиева М.И.**

## Азербайджанская нумизматика в трудах зарубежных ученых

## РЕЗЮМЕ

Диссертация посвящена одной из актуальных проблем археологии и нумизматики Азербайджана.

Диссертационная работа состоит из введения, трех глав, заключения, списка литературы и иллюстраций.

Во "Введении" обоснована актуальность темы, проанализированы хронологические рамки, степень изученности, источниковедческая и методологическая база проблемы, указаны цели и задачи, научная новизна, теоретическое и практическое значение исследования.

В первой главе «Нумизматика Азербайджана в сочинениях русских ученых» даются широкие сведения о нумизматике Азербайджана и монетных дворах азербайджанских городов, отмеченных в сочинениях ученых нумизматов.

Во второй главе «Азербайджанская нумизматика в сочинениях грузинских ученых» особое место занимают сведения грузинских ученых об азербайджанских монетных дворах и монетах, чеканенных в этих дворах.

В третьей главе «Азербайджанская нумизматика в сочинениях ученых других стран» изучен нумизматический материал Азербайджана, отмеченный в трудах ученых Европы и Азии, а также опубликованный в зарубежных журналах. Получены интересные результаты, изученных, не известных науке, монет, чеканенных от имени некоторых правителей.

В "Заключении" подведены итоги основным выводам, вытекающим из содержания исследования и обобщаются результаты.

**Valiyeva M.I.**

## Azerbaijan numismatics in the works of foreign scientists

## SUMMARY

The dissertation is devoted to one of the urgent problems of archeology and numismatics of Azerbaijan.

The dissertation consists of the introduction, three chapters, conclusion, the bibliography and illustrations.

The Introduction deals with the urgency of the subject. Here is analyzed the chronological frameworks, the studying degree, source studying and methodological base of the problem, are shown the goals and objectives, scientific innovation, theoretical and practical significance of the research.

Chapter I "Numismatics of Azerbaijan in the works of Russian scientists" provides with ample information about numismatics of Azerbaijan and mints of Azerbaijani towns noted in the works of scholars numismatists.

In chapter II "Azerbaijan numismatics in the works of Georgian scientists" a special place occupies information of Georgian scientists about Azerbaijani mints and coins minted there.

In chapter III "Azerbaijan numismatics in the works of foreign scientists" was studied numismatic material of Azerbaijan noted in the works of European and Asian scientists, as well as published in foreign journals.

Interesting results were achieved about the coins minted in the name of some rulers that have not been known to science yet.

In the conclusion the main conclusions arising from the content of the research have been summed up and the results have been summarized.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

---

*На правах рукописи*

**МАСУДА ИСМАЙЫЛ кызы ВЕЛИЕВА**

# АЗЕРБАЙДЖАНСКАЯ НУМИЗМАТИКА В ТРУДАХ ЗАРУБЕЖНЫХ УЧЕНЫХ

5505.02 – Археология

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени

доктора философии по истории

**БАКУ- 2013**